

# "MEH" ədəbi dərnəyinin hesabat tədbiri



Dekabrın 20-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "MEH" ədəbi dərnəyinin hesabat tədbiri keçirilib. 2019-cu ildən ADPU-da fəaliyyət göstərən "MEH" ədəbi dərnəyinin hesabat tədbirində 3 il ərzində görülən işlərə, yaradıcılıq fəaliyyətinə nəzər salınıb.

Hesabat tədbirində ADPU-nun rektoru professor Cəfər Cəfərov, universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, "MEH" ədəbi dərnəyinin yaradıcısı professor Mahirə Hüseynova və professor-müəllim heyəti, tələbələr iştirak ediblər. Tədbirdə "MEH" ədəbi dərnəyi tərəfindən 2019-cu ildən başlayaraq bir çox layihələrin, tədbirlərin keçirilməsi diqqətə çatdırılıb.

Belə ki, universitetin 100 illik yubiley mərasimində dərnəyin üzvləri yaddaqalan çıxışlar edib, kompozisiya nümayiş etdiriblər. "Nizaminin 880 illik yubileyi", "İmadəddin Nəsiminin 650 illiyi", "Mirzə Ələkbər Sabirin 160 illik yubileyi", "Hüseyn Cavidin 140 illik yubileyi" tədbirlərində dərnək iştirakçıları maraqlı çıxışları ilə yadda qalıb. Eləcə də Xalq yazıçısı Anarın, şair, nasir, dramaturq, Əməkdar incəsənət və ictimai xadim Hidayət Orucovun, şair-pedaqoq, professor Zahid Xəlilin və professor, tanınmış şair Mahirə Nağıqızının "Yaradıcılıq gecələri"ndə dərnək üzvləri çıxış edib, kompozisiyalar göstəriblər.

Hesabat tədbirində açılış nitqi ilə çıxış edən ADPU-nun Ədəbiyyat kafedrasının müəllimi, dosent Qüdrət Umudov Filologiya fakültəsində fəaliyyət göstərən "MEH" ədəbi dərnəyinin keçdiyi yaradıcılıq tarixinə nəzər yetirib. Öz həssas duyğuları, o zamanki fəaliyyəti ilə fakültəmizin dekanı, professor Mahirə Hüseynova yaradıcı adam olaraq fakültənin mədəni-mənəvi həyatında dəyişiklik etməyi qərara aldı. Bununla da fakültənin müəllim heyətini, xarici dil departament müəllimlərini bir araya toplayaraq məslə-hət-məşvərət etdi. Nəticədə yaradıcılıq dərnəyinin yaradılması qərara alındı. İstedadlı uşaqlar qruplardan yığıldı və onların öz bacarıqlarını nümayiş etdirməsi üçün bu dərnək yaradıldı. Mahirə xanımın tövsiyəsi ilə bir neçə bölmə yarandı: Nəsr, poeziya və ədəbi-tənqidi. 3 bölmə ilə başlayan dərnək sonrakı fəaliyyət illərində öz yaradıcı diapazonunu genişləndirdi. Rəsm, musiqi, rəqs, teatrda aktyorluq, bədii qiraət bölmələri də əlavə olundu, yaradıcı əhatəsi genişləndi".

Bildirilib ki, "MEH" ədəbi dərnəyi bir sıra konfranslarda, respublika tədbirlərində uğurla fəaliyyət göstərib. Çoxlu mükafatlar alıb, bir sıra layihələr həyata keçirilib, televiziyada və mətbuatda fəaliyyət istiqaməti, gördüyü işlər işıqlandırılıb.

Sonra dərnək üzvləri tərəfindən Əbdürrəhim bəy Haqverdiyevin "Qoca tarzən", Hüseyn Cavidin "Ana", Mirzə Ələkbər Sabirin "Qoyma gəldi" əsərləri və digər səhnəciklər nümayiş olunub, müxtəlif şeir və mahnılar səsləndirilib, rəqslər oynanılıb. Çıxışların sonunda Respublika Muğam Müsabiqəsinin qaliblərindən olan yeddi nəfərin iştirakı ilə "Qurbanı olduğum Azərbaycanım" mahnısı ifa olunub.

Tədbirin sonunda dərnəyin yaradıcısı Mahirə Hüseynova çıxış edərək bütün qonaqlara və eləcə də dərnək üzvlərinə göstərdikləri yaradıcılıq fəaliyyətlərinə görə təşəkkürünü bildirib.

**Tünzalə QULİYEVA**